# Qarabağ və Şərqi Zəngəzurda bərpa işləri sürətlə davam edir

***İkinci Qarabağ müharibəsində parlaq qələbə qazanaraq düşmən tapdağından azad etdiyimiz tarixi torpaqlarımızda həyat yenidən canlanır. Qarabağ və Şərqi Zəngəzurda nəhəng tikinti layihələri icra olunur, bütün sahələrdə geniş quruculuq işləri aparılır.***



Vətən savaşından dərhal sonra başlanan yenidənqurma tədbirləri indiyədək əsasən, Azərbaycan dövlətinin öz maddi imkanları hesabına həyata keçirilib. Bu il mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində “ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində Prezident İlham Əliyev bununla bağlı deyib: “Bu, böyük bir prosesdir və onu da bildirməliyəm ki, biz bu işi dövlət büdcəsi hesabına edirik. Heç bir yerdən heç bir yardım almamışıq, heç bir kredit almamışıq, heç bir ianə, yaxud da ki, bir hədiyyə almamışıq, öz gücümüzə arxalanırıq, necə ki, həmişə belə yaşamışıq, gücümüz qədər nailiyyətlər də əldə etmişik”.

Doğma torpaqlarından köçkün düşmüş soydaşlarımızın geri qayıtması üçün reallaşdırılan layihələr “ağıllı kənd”, “ağıllı şəhər” konsepsiyalarına əsaslanır. Bu, həm də Azərbaycan dövlətinin öz vətəndaşları üçün ən yüksək standartları tətbiq etməsindən xəbər verir. O cümlədən, Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji” zonası yaradılır ki, bu da müasir qlobal çağırışların Azərbaycanda uğurla gerçəkləşdiyini göstərir.



Yeri gəlmişkən, ölkəmizdə “yaşıl enerji”ni şərtləndirən alternativ enerji mənbələri çoxdur. Məsələn, bununla bağlı Cəbrayıl rayonunda 240 meqavatlıq Günəş stansiyasının tikintisi ilə bağlı növbəti addımlar atılır. Ümumilikdə isə işğaldan azad olunan Kəlbəcər və Laçın rayonlarında 10 min meqavata yaxın potensial mövcuddur.

Burada onu da qeyd edək ki, düşməndən təmizlənən ərazilərin yenidən qurulması üçün büdcədən vəsait ayrılması Vətən müharibəsindən sonra daim diqqətdə saxlanılıb. Xatırladaq ki, ötən il bu məqsədlə dövlət büdcəsindən 2,2 milyard manat ayrılıb. Cari ildə də həmin həcmdə vəsaitin xərclənəcəyi nəzərdə tutulsa da, iyun ayında dövlət büdcəsinin gəlir və xərcləri artırıldığından əlavə 470 milyon manat işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldilib. Beləliklə, son iki ildə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasına ümumilikdə 5 milyard manata yaxın vəsait ayrılıb.

Yeri gəlmişkən, bu il sentyabrın 7-də Prezident İlham Əliyevin sərəncamları ilə Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi, habelə həyata keçirilməsi üçün 2022-ci il dövlət büdcəsində bu məqsədlə nəzərdə tutulan vəsaitdən “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsə ilkin olaraq 3 milyon manat, bu işlərin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında həyata keçirilməsi üçün isə “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsə ilkin olaraq 2 milyon manat vəsait ayrılıb.

Bu, Qarabağ və Şərqi Zəngəzurun bərpası işlərinin sürətlə aparılmasını şərtləndirir və dövlət tərəfindən lazım olan bütün tədbirlərin həyata keçirildiyini göstərir. Azad olunmuş ən ucqar ərazilər belə hazırda geniş tikinti meydanını xatırladır. Bütövlükdə işğaldan azad olunmuş bütün ərazilərimizdə doğma yurdlarına qayıdacaq insanlarımız üçün ən müasir həyat standartları yaradılır.

Bu gün Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində fəaliyyət həm də idarəçilik baxımından təkmil formada həyata keçirilir. Cari ilin iyul ayında Prezident İlham Əliyevin müvafiq fərmanları ilə “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” və “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxslərinin yaradılması da bunu təsdiqləyir.

Qeyd edək ki, istər Qarabağ, istərsə də Şərqi Zəngəzur iqtisadi rayonlarında artıq fəaliyyətə başlayan qurumlar–Bərpa, Tikinti və İdarəetmə Xidmətləri işğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxslərdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yol-nəqliyyat infrastrukturunun yaradılmasına da böyük önəm verilir. Bu baxımdan iqtisadi, strateji cəhətdən xüsusi əhəmiyyət daşıyan Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanlarının tikintisi diqqət çəkir. Artıq Füzuli hava limanı fəaliyyət göstərir. Tezliklə Şərqi Zəngəzurun ilk aeroportu olan Zəngilan Beynəlxalq Hava Limanının da açılışı gözlənilir.

Xatırladaq ki, bu ayın 9-da Zəngilan aeroportunda “Azərbaycan Hava Yolları”nın (AZAL) ən böyük sərnişin təyyarəsi “Airbus A340-500” ilk texniki uçuşunu müvəffəqiyyətlə yerinə yetirib və burada yeni uçuş-enmə zolağına enib.

AZAL-ın mətbuat xidmətindən bildirilib ki, sərnişin təyyarəsində Bakı-Zəngilan marşrutu üzrə uçuş müddəti təqribən 45 dəqiqə təşkil edib. “Uzun illik işğaldan azad olunmuş Azərbaycan ərazisində beynəlxalq hava limanlarının tikintisi və fəaliyyəti ölkə Prezidenti İlham Əliyevin qərarı və tapşırığı sayəsində mümkün olub”, - deyə AZAL-ın prezidenti Cahangir Əsgərov məlumat verərək, işğaldan azad edilmiş ərazilərdə artıq ilk beynəlxalq hava limanının fəaliyyət göstərdiyini, tezliklə açılışı nəzərdə tutulan ikinci aeroportun da istifadəyə veriləcəyini bildirib: “Zəngilan beynəlxalq aeroportu çoxfunksiyalı hava limanı olaraq, regionun iqtisadi, nəqliyyat və sosial məsələlərinin həlli üçün mühüm infrastruktur olacaq. Ölkənin digər beynəlxalq hava limanları kimi, müasir tipli böyük təyyarələri qəbul edə bilən bu hava limanı, eyni zamanda, dünya standartlarına və tələblərinə cavab verəcək”.

Zəngilandakı yeni hava limanı üçün ICAO və IATA-nın beynəlxalq kodları (müvafiq olaraq UBBZ və ZZE), həmçinin EUROCONTROL təşkilatının naviqasiya vasitələrinin bütün çağırış siqnalları təyin edilib.

Aerodrom ICAO-nun bütün tələblərinə əsasən uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün cihazlar üzrə enmə və naviqasiya sistemləri, işıq-texniki sistemlər, birinci və ikincili müşahidə radiolokasiya stansiyası ilə tam təchiz olunub. Perronun sahəsi 60 min kvadratmetrə çatdırılıb.

Zəngilan hava limanı texniki cəhətdən tam komplektləşdirilib və bütün tələb olunan aeronaviqasiya avadanlıqları ilə təmin edilib. Hava hərəkətinin avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz olunan hava hərəkəti idarəsi qülləsinin tikintisi başa çatdırılıb.

Yeri gəlmişkən, Laçın Beynəlxalq Hava Limanının təməli ötən il avqustun 16-da Prezident İlham Əliyev tərəfindən qoyulub.

Laçın rayonunun Qorçu kəndinin ərazisində salınan hava limanı da bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcəyini, turizm potensialının artırılmasına səbəb olacağını şərtləndirir.

Olduqca mühüm strateji əhəmiyyətə malik olan, dəniz səviyyəsindən ən hündürdə yerləşən Laçın hava limanı logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Hava limanında 6 təyyarə dayanacağı inşa ediləcək. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi də asanlaşdıracaq.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında diqqət yetirilən məsələlərdən biri də təhsil infrastrukturunun qurulması ilə bağlıdır. Belə ki, bu torpaqlarda məskunlaşmanın aparılması üçün yeni məktəblərin tikintisi mühüm önəm daşıyır.

Qeyd edək ki, artıq yeni tədris ilində Qarabağ və Şərqi Zəngəzurun ilk təhsil zəngi Ağalıda çalınacaq, qaynar təhsil mühitinə start veriləcək.

Yeri gəlmişkən, Prezident İlham Əliyev ötən il mayın 12-də Qarabağın ən qədim təhsil ocağı olan Şuşa 1 saylı tam orta məktəbin, mayın 28-də erməni vandalları tərəfindən məhv edilən Ağdam şəhər 1 saylı tədris müəssisəsinin yeni binasının təməlini qoyub.

Ağdamda yenidən inşa olunacaq bu qədim məktəbin layihəsində məktəb üçün üçmərtəbəli bina və plana uyğun olaraq, inzibati hissə, tədris korpusları, idman meydançası, texniki zona təşkil olunması nəzərdə tutulub. 960 nəfər şagird üçün nəzərdə tutulan məktəbdə 18 sinif otağı, 37 fənn kabineti, kimya, fizika, biologiya laboratoriyaları yaradılacaq. Məktəbdə tədris üçün hər cür şərait, bütün texniki imkanlar olacaq.

Ötən il oktyabrın 4-də Prezident İlham Əliyev Cəbrayılda akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlini qoyub. Cəbrayıl şəhərində daha 3 məktəbin tikilməsi də nəzərdə tutulub. Bundan başqa, Füzulidə 960 şagird yerlik tam orta məktəbin tikintisinin, Suqovuşan qəsəbəsində isə 144 şagird yerlik məktəbin əsaslı təmirinin layihə-smeta sənədləri hazırlanıb. Dövlətimizin başçısı tərəfindən sentyabrın 7-də isə Kəlbəcər şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300 min manat ayrılması ilə bağlı sərəncam imzalanıb.

Sözügedən tarixdə Prezidentin imzaladığı daha bir sərəncamda Zəngilan şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə 2022-ci il dövlət büdcəsində nəzərdə tutulan vəsaitdən Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300 min manat ayrılması qərara alınıb.

Bütün bunlar bir daha onu göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı Azərbaycan dövləti üçün ən prioritet məsələdir. Prezident İlham Əliyev 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işlərindən bəhs edərkən deyib: “Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik”.

Dövlətimizin başçısının bu sözləri deməyə əsas verir ki, ölkəmizin zəngin potensial imkanları azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində səfərbər edilib.

**V.BAYRAMOV,**
**“Xalq qəzeti”**

***Ermənilər 30 il ərzində torpaqlarımızda oturub bizə meydan oxuyurdular. Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxın ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. Azad edilmiş torpaqlarda salamat bina qalmayıb, tarixi abidələrimiz dağıdılıb, məscidlərimiz talan edilib. Onlar hesab edirdilər ki, biz bununla razılaşacağıq. Onlar rayonlarımızın, kəndlərimizin adlarını dəyişdiriblər. Amma onlar Azərbaycan xalqının iradəsini qıra bilmədilər. İşğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayır. Biz onların arzusunu yerinə yetirəcəyik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***